# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva "Xəyal etmək azadlığı" sərgisində iştirak ediblər

**Azərbaycan Rəssamlar İttifaqı və VarYox mədəniyyət və incəsənət platforması birgə əməkdaşlıq çərçivəsində qadınların bədii təcrübələrini vurğulamağa həsr olunmuş illik "Her Art in Action" festivalının builki buraxılışını təqdim edib.**

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyeva festival çərçivəsində keçirilən "Xəyal etmək azadlığı" mövzusunda sərgidə iştirak ediblər.

Martın 9-dan aprelin 6-dək davam edən builki sərgi qadınların həm fərdi, həm də kollektiv şəkildə xəyallarını necə təsəvvür və ifadə etdiklərini, necə vizuallaşdırdıqlarını araşdırır. Festival sərgi və dinamik ictimai proqram vasitəsilə dialoq, düşüncə və bədii araşdırma üçün platforma yaradır.

Lesli Qrey və Ayna Moazzenin kuratorluq etdiyi sərgi açıq çağırışla seçilmiş 23 azərbaycanlı və 3 beynəlxalq rəssamı, həmçinin beynəlxalq kuratoru bir araya gətirir. Sərgidə rəsm, videoəsərlər, tamaşalar və instalyasiyalar daxil olmaqla, müxtəlif bədii üslublar və vizyonlar nümayiş etdirilir. Sərgi təxəyyülün şəxsi təcrübələrdən, sosial kontekstlərdən və mədəni normalardan təsirlənərək həm imkanlar, həm də məhdudiyyətlər üçün bir məkan kimi necə xidmət etdiyini araşdırmaq məqsədi daşıyır.

Sərgidən əlavə, "Her Art in Action" bir sıra seminarlar, portfolio icmallar, həmçinin qonaq olan rəssamlar və kuratorlar ilə müzakirələr vasitəsilə bədii inkişafı və əməkdaşlığı dəstəkləyir. Bu təşəbbüslər yeni başlayan və təcrübəli rəssamlar üçün öz təcrübələrini təkmilləşdirmək, yeni perspektivlər qazanmaq və həm yerli, həm də beynəlxalq sənət icmaları ilə əlaqə yaratmaq üçün mühüm fürsət yaradır. Azərbaycan Rəssamlar İttifaqı, "Pasha Travel", Nar və Niderlandın Azərbaycandakı səfirliyinin dəstəyi ilə keçirilən "Her Art in Action" incəsənətdə qadınların səsini artırmaq üçün əsas platforma rolunu oynamaqda davam edir.









Azərbaycan.- 2025.- 11 mart (№53).- S.5.